


# Xocalı ruhumuzun şəhəridir...



*Tarix yaşanmış aylardan, illərdən ibarətdir. Hər bir ay, il dövlətin dövlətçiliyin və xalqın taleyinə bağlı olduqda isə heç vaxt unudulmur. Qürurla xatırladığımız anlar da, qəhər dolu xatirələrimiz də... 1990-cı ilin 20 yanvarında rus imperiyası Azərbaycanın milli-azadlıq hərakatını boğmaq məqsədilə dəhşətli faciə törətdi.*

Bu, unudulmayacaq hadisədir. 1991-ci ilin 18 oktyabrında Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə bağlı Konstitusiya Aktı qəbul olundu. Bundan qorxuya düşən Ermənistan təcavüzkar müharibəyə başlayaraq dislokasiya yeri Xankəndi olan 366-cı alayın iştirakı ilə Xocalı şəhərində soyqırımı cinayət törətdi. Bu tarixi anlar xalqımızın yaddaşında, hər bir azərbaycanlının qəlbində əbədi olaraq yaşayacaq. Biz bu acı təcrübələri unutmamalıyıq, çünki onlar bizim gələcəyimiz üçün dərs, mübarizə simvoludur.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev demişdir: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəlmiş Xocalı soyqırımı, öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza metodları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda bütün insanlığa qarşı tarixi bir cinayətdir. Xocalı faciəsi - Ermənistanın millətçi və vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı həyata keçirilmiş soyqırımıdır - vəhşiliyin görünməmiş bir təzahürüdür". Bu sözlər Xocalı soyqırımını yalnız bir hadisə deyil, eyni zamanda bəşəriyyətin tarixində dərin izlər qoyan cinayət kimi xatırlamağımızın vacibliyini vurğulayır.

Bu strateji yaşayış məntəqəsi ermənilərin Qarabağdakı siyasi istinadgahları Əsgəran və Xankəndi yaxınlığında yerləşirdi. Belə bir ərazidə bu dərəcədə amansız bir faciənin törədilməsi düşmənin əsl niyyətini göstərirdi. O qış gecəsində Bakıdan və yaxın rayonlardan Xocalıya heç bir hərbi yardım göndərilməmişdi. Həmin gecə Xocalıda sanki dünyanın sonu idi. Erməni silahlı birləşmələri və 366-cı alayın şəxsi heyəti şəhəri odlara qaladılar. İnsanlar canlarını qurtarmaq üçün üzü Ağdama doğru qaçırdılar. Neçə yerdə pusquya düşən, erməni silahlılarından canlarını qurtara bilməyənlər ya güllələndi, ya da əsir alındılar. Həmin gün Xocalıda 613 nəfər həyatını itirdi. Onların içərisində 63 uşaq, 106 qadın və 70 yaşlı insan var idi. 8 ailə tamamilə məhv edildi, 56 nəfər diri-diri yandırıldı. 150 nəfərin taleyi isə indiyə qədər naməlum qalır.

1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" tarixi qərar qəbul etdi. Bu qərar gerçəkliyi bütün dünyaya bir daha xatırlatdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycanın ərazisində soyqırımı qurbanlarına ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edildi. Xocalı soyqırımı bir çox ölkələr tərəfindən tanınmışdır. Bu günə qədər Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın müvafiq, eləcə də ABŞ-ın 20-dən çox ştatının parlamentləri tərəfindən qətnamələr qəbul edilmişdir. Bu, soyqırımının və insanlığa qarşı yönəlmiş cinayətin mühakiməsi deməkdir.





2008-ci ildən etibarən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə "Xocalıya ədalət" beynəlxalq kampaniyası 100 mindən çox insanın və 115 müxtəlif təşkilatın iştirakı ilə həyata keçirilir. Kampaniya çərçivəsində sosial şəbəkələrdə yayımlanan təşviqat materialları, sərgilər, toplantılar, müsabiqələr, konfranslar, seminarlar və digər tədbirlər istifadə olunan effektiv vasitələrdir. "Justice for Khojaly" informasiya portalı Ermənistanın Xocalı soyqırımı ilə bağlı cinayətkar əməllərinin ifşa edilməsində müstəsna rol oynayan mühüm təbliğat platformasıdır.

Xocalı faciəsi haqqında xarici jurnalistlərin yazdıqları gələcəkdə bu dəhşətli hadisəyə görə keçiriləcək beynəlxalq məhkəmələrdə fakt kimi səslənəcək: "Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar" (Faynenşl Tayms qəzeti (London), 9 mart 1992-ci il), "Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır" (Tayms qəzeti (London), 4 mart 1992-ci il). Bu ifadələr Xocalı soyqırımının dəhşətini daha da aydınlaşdıraraq dünya ictimaiyyətinin bu cinayəti unutmadığını sübut edir. Lakin buna baxmayaraq Ermənistan tərəfi 33 il keçməsinə baxmayaraq, hələ də törətdiyi cinayət əməlini etiraf etməkdən boyun qaçırır.

İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazanan ordumuz 2023-cü ilin sentyabrında Əsgəranı, Xocalını və Xankəndini işğaldan azad edərək tarixin dönüş nöqtəsini yaratdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri uğurla davam etdirilir. Ötən il fevralın 26-da Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoydu. Səfər zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə ölkə başçımız demişdir: "Onu bildirməliyəm ki, bu layihə çoxdan hazır idi, yer də seçilmişdi, Bakı şəhərində Xocalı soyqırımı abidəsinin yanında yer seçilmişdir. Ancaq memorial kompleksin tikintisi ilə bağlı hər il mən müəyyən tərəddüdlər keçirərək o hadisəni, o layihəni təxirə salırdım. Ona görə ki, sizin kimi mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və burada günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün memorial kompleks yaradılacaq".

2024-cü il mayın 28-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərində 15 çoxmənzilli binada aparılan təmir və yenidənqurma işləri ilə tanış oldular. Qurulan yeni Xocalıya əhali köçürüldü. Xocalıya qayıdışın 28 May - Müstəqillik Günündə başlaması Azərbaycanın erməni terroruna qarşı mübarizədə qazandığı zəfərin rəmzidir. Azərbaycanın Zəfəri torpaqlarının bərpası deyil, həm də bəşəriyyətin şər üzərində qazandığı qələbədir. Prezident İlham Əliyev Xocalıya qayıdışın həm Azərbaycanın, həm də bəşəriyyətin ədalətə, sülhə və haqqın qələbəsinə yönələn əzmini simvollaşdırdığını vurğuladı. Xocalı faciəsindən 33 il, şəhərin işğaldan azad edilməsindən isə 2 il keçir... Nə faciə günü unudulacaq, nə də işğaldan azad edildiyi gün. Xocalı ruhumuzun şəhəridir...

**Səbinə XASAYEVA,**
**Milli Məclisin deputatı.**